Silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanmasına, dövriyyəsinə və talanmasına dair işlər üzrə məhkəmə təcrübəsi haqqında

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun

27 may 2005-ci il tarixli №2 Bakı şəhəri

**QƏRARI:**

Məhkəmə statistikası göstərir ki, hər il qanunsuz olaraq silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələrin və qurğuların əldə edilməsi, hazırlanması və satışı ilə bağlı məhkəmələrdə xeyli cinayət işlərinə baxılır. Bu sahədəki qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi zamanı qanunun tələblərinin müxtəlif mənada başa düşülməsi halları mövcuddur.

Bu, bir tərəfdən də onunla əlaqədardır ki, 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş cinayət qanunvericiliyi qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, həmin predmetləri və məmulatları hazırlama, talama, hədə-qorxu ilə tələb etmə ilə əlaqədar yeni tövsifedici əlamətlər müəyyən etmişdir.

Azərbaycan Respublikası 2000-ci ildə “Fərdi şəxslərin odlu silah əldə etməsi və saxlaması üzərində nəzarət haqqında” 1978-ci il 28 iyun tarixli Avropa Konvensiyasına qoşulmuş, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi 2003-cü il dekabrın 29-da “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228-ci maddəsinin şərh edilməsi barədə” qərar qəbul etmişdir.

Həmin səbəblərdən Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun “Silah, döyüş sursatı və ya partlayıcı maddələrin oğurlanması və qanunsuz dövriyyəsinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında” 1998-ci il 22 may tarixli qərarında verilən əvvəlki izahlar hazırkı dövrün tələblərini ödəmir.

Silahların, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz hazırlanması, dövriyyəsi və talanması işləri üzrə vahid məhkəmə təcrübəsi yaratmaq məqsədilə Ali Məhkəmənin Plenumu

QƏRARA ALIR:

1. Məhkəmələr Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228, 229 və 232-ci maddələrində nəzərdə tutulan cinayət işlərinə baxarkən nəzərə almalıdırlar ki, bu cinayətlərin predmetini odlu silah, onun komplekt hissələri, döyüş sursatı (yivsiz silah və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular təşkil edir.

Təqsirləndirilən şəxsdən götürülən predmetin qeyd edilən maddələrin dispozisiyalarında nəzərdə tutulan predmetə aid olub-olmaması məsələsi “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikasının Qanununun və “Fərdi şəxslərin odlu silah əldə etməsi və saxlaması üzərində nəzarət haqqında” Avropa Konvensiyasının müddəaları əsasında müəyyənləşdirilməlidir.

Təqsirləndirilən şəxsin qanunsuz əldə etdiyi, başqasına verdiyi, saxladığı, daşıdığı, gəzdirdiyi, hazırladığı, təmir etdiyi, taladığı və ya hədə-qorxu ilə tələb etdiyi predmetin odlu silaha, onun komplekt hissələrinə, döyüş sursatına, partlayıcı maddələrə və ya qurğulara aid olub-olmamasını müəyyən etmək üçün xüsusi biliyə ehtiyac olduqda iş üzrə ekspertizanın keçirilməsi zəruridir.

2. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə əsasən, silah dedikdə, canlı qüvvənin və digər obyektlərin, o cümlədən texnikanın və tikililərin məhv edilməsi və yaxud işarə vermə üçün nəzərdə tutulmuş, lakin canlı qüvvənin və digər obyektlərin məhv edilməsi üçün istifadə oluna bilən qurğu və vasitə başa düşülməlidir.

Odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular və soyuq silah həm sənaye, həm də kustar üsulla istehsal edilə və hazırlana bilər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228-ci maddəsinə və "Fərdi şəxslərin odlu silah əldə etməsi və saxlanılması üzərində nəzarət haqqında" 1978-ci il 28 iyun tarixli Avropa Konvensiyasının müddəalarına əsasən odlu silaha aşağıdakılar aiddir:

a) avtomatik silah;

b) yarımavtomatik mexanizmli, yenidən doldurma tələb edən mexanizmli və ya tək-tək atəş açan mexanizmli qısalüləli silah;

c) yarımavtomatik mexanizmli və ya yenidən doldurulma tələb edən mexanizmli minimum biryivli lüləli mexanizmli uzunlüləli silah;

ç) yivli lüləsi birdən az olmayan təkatılan uzunlüləli silah;

d) əl reaktiv qumbara atanlar;

e) hücum və ya müdafiə odsaçanlar;

ə) yay tipli atıcı mexanizmli silah.

Odlu silahlara, həmçinin yivli lüləsi olan müxtəlif növ tapançalar, minaatanlar, təyyarəvuran toplar və bu bəndin "a—ə" yarımbəndlərində göstərilən xüsusiyyətlərə malik olan digər silahlar da aiddirlər.

Pnevamatik silah, işıqverici, işarəverici, fişəng atıcı, tikinti-montaj təyinatlı tapança və revolverlər, elektroşok qurğuları, eləcə də soyuq silah odlu silah hesab edilmir.

3. "Avtomatik" termini, ondan növbə ilə atəş açıla bilən silahlara aiddir.

"Yarımavtomatik" termini, tətiyi hər dəfə sıxarkən atəş açılan silahlara aiddir.

"Yenidən doldurma tələb edən mexanizmli" termini, tətiyi sıxmaqdan başqa, onun hərəkətə gətirilməsi üçün hər dəfə yenidən doldurulmasının yerinə yetirilməsi zəruri olan silahlara aiddir.

"Təkatılan" termini, lüləli və ya lülələri hər növbəti atəşin açılması üçün yenidən doldurulan silahlara aiddir.

"Qısalüləli" termini, lüləsinin uzunluğu 30 santimetrdən çox olmayan və ya ümumi uzunluğu 60 santimetrdən az olan silahlara aiddir.

"Uzunlüləli" termini, lüləsinin uzunluğu 30 santimetrdən çox, ümumi uzunluğu isə 60 santimetrdən çox olan silahlara aiddir.

4. "Xidməti və mülki silah haqqında" Qanunun 2-ci maddəsinin 5-ci bəndinə əsasən döyüş sursatı—müvafiq silah növündən atəş açmaq üçün nəzərdə tutulmuş konstuktiv qurğu və ya əşyalardır.

Döyüş sursatı dedikdə, hədəfi məhv etmək üçün müəyyən olunmuş və tərkibində dağıdıcı, tullayıcı və vurub çıxardığı atımın, yaxud onların məcmusu olan silahlanma predmetləri və tullayıcı sursatlar başa düşülür.

Döyüş sursatına-hədəfi məhv etmək üçün nəzərdə tutulan artilleriya mərmi və minaları, hərbi mühəndis atımları (partlayış törədici qanadlı ballistik raket və qurğular), minalar, tank əleyhinə olan qumbaralar, əl qumbaraları, piyada əleyhinə olan və reaktiv qumbaralar, kalibrindən asılı olmayaraq, hədəfi məhv etmək elementi (karteç, qırma, mərmi-güllə və s.) ilə yanaşı, digər bütün elementləri olan müxtəlif odlu silah patronları aid edilir.

Hədəfi zədələmək və məhv etmək üçün nəzərdə tutulan elementi (mərmisi, gülləsi, qırması və s.) olmayan və canlı hədəfi məhv etmək təyinatına malik olmayan işarəverici, işıqverici, tikinti-montaj işlərində istifadə edilən qaz və təlim patronları döyüş sursatlarına aid deyillər.

Xüsusi təyinatlı sursatlara—hədəfi məhv etmək üçün nəzərdə tutulmamış, yəni məhv etmə elementləri (mərmisi, gülləsi, karteçi, qırması və s.) olmayan atəşin səsinə, işığına və aldatma məqsədilə istifadə etmək üçün aldadıcı döyüş patronları və ya işıqlandırıcı, işarəverici, səsverici, idarəedici fişəng patronları və fişəng atıcıları, gözyaşardıcı qaz patronları və balonları, müəyyən müddətə halsızlaşdıran qurğular, yerüstü sahəni dumanla örtən tüstü buraxıcı patron və qurğular, aşındırıcı xassəli, kimyəvi-hərbi zəhərləyici maddələri olan patronlar, balonlar və qurğular, həmçinin rezin, taxta, plastmas, polietilen, yumşaq materialdan olan kisəciklərə yerləşdirilmiş xırda qurğuşun qırmaları, iynə şprisli, sink xəlitəsindən mərmiləri olan ağrıdıcı və ya heyvanları müvəqqəti ölümcül vəziyyətə gətirmək üçün nəzərdə tutulmuş patronlar, mıx atan qurğular, arbaletlər, balıq ovlamaq üçün nəzərdə tutulmuş müxtəlif qarpunlar aiddirlər və bu əşyalar CM-in 228—229, 231, 232-ci maddələrində nəzərdə tutulmuş cinayətlərin predmetləri hesab edilmirlər.

Partlayıcı maddələr dedikdə, tezliklə özüyayılan kimyəvi çevrilmə xüsusiyyətinə və partlama qabiliyyətinə malik kimyəvi birləşmələrdən ibarət maddələr başa düşülməlidir. Bunlara trotil, ammonitlər, plastidlər, elastitlər, tüstülü və tüstüsüz barıt, bərk raket yanacağı və s. aiddir.

Partlayıcı qurğular dedikdə, partlayıcı maddələrdən və konstruktiv təyinatına görə partlayışın baş verməsi üçün qığılcım yaradan xüsusi qurğulardan (məsələn, detonator, fitil və s.) ibarət olan predmetlər nəzərdə tutulur.

—Odlu silahın komplekt hissələri dedikdə, onun funksional təyinatını müəyyən edən hissələr-odlu silahın lüləsi, zərbə, buraxılış (tətik), bağlayıcı mexanizmi, baraban (güllə yuvacığı), eləcə də kompleks halında silahdan təyinatı üzrə istifadə etməyə—atəş açmağa imkan verən digər detalları başa düşülür.

Lakin odlu silahın üzərində olsa belə, həmin silahdan təyinatı üzrə atəş açmağa imkan verməyən əşyalar və qurğular (süngü bıçağı, süngü və s.) Azərbaycan Respublikası CM-in 228 və 229-cu maddələrində nəzərdə tutulmuş odlu silahın komplekt hissələrinə aid deyillər.

5. “Xidməti və mülki silah haqqında” Qanunun 2-ci maddəsinin 16-cı bəndinə görə, silahın dövriyyəsi—silahın istehsalı, gətirilməsi, aparılması, idxalı, ixracı, satışı, başqasına verilməsi, əldə edilməsi, kolleksiya edilməsi sərgisinin keçirilməsi, uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, istifadə edilməsi, göndərilməsi, götürülməsi və məhv edilməsidir.

Odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları qanunsuz olaraq başqasına vermə dedikdə, həmin predmetlərin digər şəxslərin sahibliyinə verilməsi, bağışlanması, müvəqqəti saxlama və ya istifadə etmək üçün verilməsi və bu kimi hərəkətlər başa düşülür.

6. Mülki dövriyyədən çıxarılmayan yivsiz lüləli ov tüfənginin qanunsuz hazırlanması, əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması, gəzdirilməsi və ya talanması Azərbaycan Respublikası CM-in 228, 229 və 232-ci maddələrinin tərkibini yaratmır .

Lakin qadağan edilmiş, uzunluğu 800 mm-dən az olan, habelə konstruksiyası onu qatlamaq, sökmək və ya yığmaq imkanı verən və bu zaman atəş imkanını aradan qaldırmayan odlu ov silahının qanunsuz dövriyyəsi CM-in yuxarıda qeyd edilən maddələrinin tərkibini yaradır.

Bununla belə ov tüfənglərinin, o cümlədən yivsiz lüləli ov tüfənglərindən təyinatını itirən kəsilmiş tüfəngin hazırlanması, əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması, gəzdirilməsi və ya talanması müvafiq olaraq Azərbaycan Respublikası CM-in 228, 229 və 232-ci maddələrinin tərkibini yaradır.

7. “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun tələbinə görə kalibri 4,5 mm-dən çox, gülləsinin uçuş sürəti saniyədə 150 metrdən çox olan odlu silahın idman obyektlərindən kənarda saxlanılması, istifadə edilməsi və vətəndaşlar tərəfindən əldə edilməsi qadağan olunduğundan, həmin növ silahların qanunsuz əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması, gəzdirilməsi və ya talanması müvafiq olaraq Azərbaycan Respublikası CM-in 228 və ya 232-ci maddələrinin tərkibini yaradır.

8. Partlayıcı maddələrdən və konstruktiv təyinatına görə partlayış edilməsi üçün qurğulardan ibarət olan müxtəlif partlayıcı qurğuların qanunsuz əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması, gəzdirilməsi və ya talanması da müvafiq olaraq Azərbaycan Respublikası CM-in 228 və ya 232-ci maddələrində nəzərdə tutulan cinayət məsuliyyətini yaradır.

9. CM-in 228.1-ci maddəsində odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların qanunsuz əldə edilməsi dedikdə, onların satın alınması, başqa əmlakla və ya əşya ilə dəyişdirilməsi, borc və ya bəxşiş kimi alınması, borc əvəzinə ödənilməsi, habelə qeyd olunan predmetlər tapıldıqda onların mənimsənilməsi və s. hərəkətlər başa düşülür.

Sadalanan predmetlərin qanunsuz satılması dedikdə, onların qanunsuz olaraq hər hansı bir üsulla yayılması (satılması, dəyişdirilməsi, borc əvəzinə verilməsi və ya borc olaraq verilməsi və s.), yəni həmin predmetlərin başqasının sahibliyinə keçməsi ilə yanaşı, onların üzərində sərəncam vermək hüququnun da əvvəlki sahibindən digər şəxsə keçməsi başa düşülməlidir.

Bu cinayətin predmetlərinin qanunsuz saxlanılması dedikdə, onların binalarda, gizli saxlanc yerlərində, habelə mühafizəsi təmin edilən və üzərində zəruri nəzarət həyata keçirilən digər yerlərdə saxlanılması başa düşülməlidir.

Həmin predmetlərin qanunsuz daşınması dedikdə, onların yerinin dəyişdirilməsi ilə istənilən üsulla qəsdən edilən hər hansı bir hərəkət başa düşülməlidir.

Odlu silahın və bu cinayətin digər predmetlərinin qanunsuz gəzdirilməsi dedikdə, onların təqsirli şəxsin bilavasitə paltarlarında, bədənin üstündə olması, eyni zamanda çantada, portfeldə və s. əl yükündə gəzdirilməsi başa düşülməlidir.

Göstərilən predmetlərin müvafiq icazə olmadan təqsirkarın idarə etdiyi nəqliyyat vasitəsində olması işin konkret hallarından asılı olaraq onları qanunsuz saxlama, daşıma və ya gəzdirmə kimi tövsif olunmalıdır.

Odlu silahın qeyd etdirilməsi (yenidən qeyd etdirilməsi) üçün qanunvericilikdə müəyyən edilmiş müddətlər bitdikdən sonra onların saxlanması, gəzdirilməsi, daşınması CM-in 228-ci maddəsinin tərkibini yaratmır.

10. CM-in 229-cu maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyətini yaradan qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları hazırlama (istehsal etmə) dedikdə, onların yaradılması, habelə başqa predmetlərin (məsələn, raket atanların, qaz, start və tikinti-montaj, məişət və idman təyinatlı inventarların) üzərində dəyişikliklər etmə nəticəsində onların odlu və ya soyuq silah, döyüş sursatı, yaxud partlayıcı maddə xüsusiyyətlərinə gətirilməsi başa düşülməlidir.

Odlu silahı təmir etmə dedikdə, onun itirilmiş məhv etmə xüsusiyyətlərinin bərpa edilməsi nəzərdə tutulur, yəni təmir nəticəsində odlu silah təyinatı üzrə istifadə üçün yararlı vəziyyətə gətirilir.

Şərh edilən maddədə nəzərdə tutulmuş odlu silahı və digər predmetləri hazırlama cinayəti həmin predmetlərin tam şəkildə yaradıldığı andan, odlu silahı təmir etmə cinayəti isə onun məhvedici xüsusiyyətlərinin bərpa edilməsi anından başa çatmış hesab edilər.

Şəxs bu cinayətin predmetlərini hazırlama, habelə odlu silahı təmir etmə üzrə texnoloji prosesi apararkən yaxalanarsa, onun əməli CM-in 229-cu maddəsində nəzərdə tutulan cinayəti törətməyə cəhd etmə kimi tövsif edilməlidir.

11. Odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların talanması dedikdə, belə predmetləri mənimsəmək və ya başqa şəxsə vermək, habelə öz mülahizəsinə uyğun şəkildə istifadə etmək məqsədilə onları hər hansı bir üsulla (quldurluq istisna olmaqla) ələ keçirmək başa düşülməlidir.

12. Azərbaycan Respublikası CM-in 228-ci və 232-ci maddələri ilə cinayət məsuliyyəti nəinki funksional istifadə üçün yararlı olan silahların qanunsuz dövriyyəsi, həmçinin təmir edilmiş, yararsız odlu silahların və ya odlu silah vəziyyətinə gətirilmiş təlim silahlarının qanunsuz dövriyyəsi və talanması zamanı da yaranır.

Təqsirli şəxs yanılıb funksional istifadə üçün yararlı olmayan silahı, döyüş sursatını, partlayıcı maddəni və qurğunu yararlı hesab edərək talamışsa, onun əməli həmin predmetlərin talanmasına cəhd kimi tövsif edilməlidir.

Əgər şəxs sadalanan predmetlərin dövriyyəsi ilə bağlı hərəkətlər edərkən vicdanlı surətdə yanılmışdırsa, bu, onun CM-in 228-ci maddəsi ilə cinayət məsuliyyəti daşımasını istisna edir. (Məsələn, sürücü daşıdığı yükün sahibinin həmin yükün içərisində odlu silah və ya döyüş sursatı gizlətdiyindən xəbərsiz olaraq yükü daşıyır).

Odlu silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr və qurğular dövlət və digər müəssisə və təşkilatlardan, eləcə də onları qanuni və qanunsuz yolla əldə etmiş ayrı-ayrı vətəndaşlardan talandıqda, Azərbaycan Respublikası CM-in 232-ci maddəsində nəzərdə tutulmuş məsuliyyət yaranır.

13. Azərbaycan Respublikası CM-in 228.2.1-ci maddəsi ilə məsuliyyət odlu silahın, döyüş sursatının və partlayıcı maddələrin və qurğuların qanunsuz dövriyyəsi ilə bağlı hərəkətlərin qabaqcadan əlbir olmuş iki və ya daha çox şəxs tərəfindən törədilməsi zamanı yaradılır.

Azərbaycan Respublikası CM-in 228.2.2-ci maddəsində nəzərdə tutulan təkrarlıq tövsifedici əlaməti təqsirkar şəxs tərəfindən Azərbaycan Respublikası CM-in 228.1, 228.2.1 və 228.3-cü maddələrində nəzərdə tutulan cinayətlərdən hər hansı birinin iki və ya daha çox dəfə törədilməsi hallarında mövcud olur.

Azərbaycan Respublikası CM-in 232.2.2-ci maddəsində göstərilən təkrarlıq əlaməti təqsirkar şəxsin əvvəllər odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların talanması üstündə məhkum olub-olmamasından asılı olmayaraq yaranır.

Əvvəllər törətdiyi cinayətə görə Cinayət Məcəlləsi ilə müəyyən edilmiş qaydada cinayət məsuliyyətindən azad olunmuş, yaxud məhkumluğu götürülmüş və ya ödənilmiş şəxs tərəfindən həmin cinayətlərin yenidən törədilməsi, cinayətin təkrar törədilməsi hesab edilmir.

Əgər təqsirləndirilən şəxs əvvəl təkbaşına, sonradan isə təkrarən digər şəxslərlə qabaqcadan əlbir olaraq döyüş sursatı və odlu silah əldə edib gəzdirirsə, onun əməli təkrarlıq və cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi əlamətlərinə görə Azərbaycan Respublikası CM-in 228.2.1 və 228.2.2-ci maddələri ilə tövsif edilməlidir.

CM-in 228.1 və 228.4-cü maddələrində göstərilən cinayət tərkibi bir-birinə münasibətdə müstəqil olduğundan CM-in 228.4-cü maddəsində nəzərdə tutulan hərəkətlər törədildikdən sonra CM-in 228.1, 228.2.1 və 228.3-cü maddələrində göstərilən əməllərin törədilməsi onların təkrar törədilməsi hesab olunmur.

14. CM-in 228.4-cü maddəsində milli geyim ləvazimatları hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla, qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən tullayıcı silahı əldə etmə, satma və ya gəzdirməyə görə cinayət məsuliyyəti nəzərdə tutulur.

“Xidməti və mülki silah haqqında” Qanunun 2-ci maddəsinin 6-cı bəndinə əsasən soyuq silahlara konstruksiyasına, ölçülərinə və materiallarına görə birbaşa istehsalat və ya təsərrüfat-məişət məqsədləri üçün nəzərdə tutulmayan xüsusi olaraq insanın əzələ qüvvəsindən istifadə etməklə zərərvurma obyekti ilə bilavasitə təmas zamanı xəsarət yetirmək təyinatına malik olan (milli geyim ləvazimatı hesab olunan hallar istisna edilməklə xəncər, beybut, ov bıçağı, qılınc, süngü bıçaqları və s.) sair kəsici-deşici və qarışıq təyinatlı silahlar, habelə insan əzələsinin və ya mexaniki qurğunun enerjisi hesabına istiqamətlənmiş hərəkət edərək müəyyən məsafədən hədəfi zədələmək təyinatına malik olan (nizə, döyüş baltası və s.) eləcə də zərbə-dağıdıcı təsirli əşyalar (beşbarmaqlar, nunsaklar, gürzlər, toppuzlar və s.) aid edilir.

Göstərilən Qanunun 2-ci maddəsinin 10-cu bəndinə əsasən qaz silahı— gözyaşardıcı, qıcıqlandırıcı, zəhərləyici , sinir-iflic və başqa güclü təsir göstərən digər maddələrin tətbiqi ilə canlı hədəfin müvəqqəti sıradan çıxarılması üçün nəzərdə tutulmuş silahdır.

15. Odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları könüllü surətdə təhvil verən şəxsin, əgər onun əməlində başqa cinayət əməllərinin tərkibi yoxdursa, CM-in 228-ci maddəsi ilə məsuliyyət daşımır.

Sadalanan predmetləri könüllü surətdə təhvil vermə dedikdə, həmin predmetlərə istədiyi kimi sərəncam vermək imkanına malik olan şəxsin motivindən asılı olmayaraq, bu predmetləri təqdim etməsi və ya onların saxlandığı yer barədə məlumat verməsi başa düşülməlidir.

CM-in 228.1-ci maddəsində nəzərdə tutulan predmetlərin həm şəxsin öz təşəbbüsü ilə, həm də digər şəxslərin məsləhəti əsasında, eləcə də müəyyən növ silahı təhvilverməni vətəndaşların öhdəliyi qismində müəyyən edən müvafiq hakimiyyət orqanlarının tövsiyəsinə görə təhvil verilməsi onları könüllü təhvilvermə kimi qiymətləndirilməlidir.

Həmin predmetləri könüllü surətdə təhvil verən şəxs CM-in 228.1—228.4-cü maddələrində qeyd edilən bütün növ əməllərə görə cinayət məsuliyyətindən azad edilir.

16. CM-in 228-ci maddəsində nəzərdə tutulan cinayətin predmetlərinin şəxs tərəfindən başqa bir cinayəti (ağır və ya xüsusilə ağır cinayəti) törətmək məqsədilə əldə edilməsi, başqasına verilməsi, satılması, saxlanılması, daşınması və ya gəzdirilməsi cinayətlərin məcmusu qaydasında CM-in 228-ci maddəsi ilə başa çatmış cinayət kimi və digər cinayəti törətməyə hazırlıq kimi tövsif edilməlidir.

Şəxs silahdan istifadə etməklə cinayət törətdikdə də onun əməli cinayətlərin məcmusu qaydasında tövsif edilir. Məsələn, silah tətbiq edilməklə quldurluq törədildikdə, əməl CM-in 181.2.5 və 228-ci maddəsi ilə tövsif olunmalıdır.

Şəxs odlu silah, döyüş sursatı, partlayıcı maddələri və qurğuları başqa cinayətin törədilməsi üçün digər şəxsə verdikdə, onun əməli müvafiq olaraq CM-in 228-ci maddəsi ilə və həmin cinayətlərin törədilməsində köməkçiliyə görə məsuliyyət nəzərdə tutulan maddələrlə tövsif edilməlidir.

Şəxs zəruri müdafiə zamanı silah tətbiq edirsə o, qanunsuz olaraq silahı əldə etməyə və ya gəzdirməyə görə CM-in 228-ci maddəsi ilə məsuliyyət daşımalıdır.

17. Odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələr və qurğuları talama və sonradan saxlama, gəzdirmə, satma və daşıma cinayətlərin məcmusu qaydasında—CM-in 232-ci və 228-ci maddələri ilə tövsif edilir.

Odlu silah, onun komplekt hissələrini , döyüş sursatını, partlayıcı maddələr və qurğuları tapmış, lakin onu mənimsəməyən və onun sonradan gizlədilməsi üçün heç bir tədbir görməyən şəxs CM-in 228-ci maddəsi ilə məsuliyyət daşıya bilməz.

Tapdığı silahı gizlətmiş və ya yerini dəyişmiş şəxs mahiyyətcə onu qanunsuz əldə edib saxladığına görə CM-in 228-ci maddəsi ilə məsuliyyət daşıyır.

18. Məhkəmələr nəzərə almalıdırlar ki, şəxs qanunsuz olaraq odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları hazırladıqdan və ya onları təmir etdikdən sonra gəzdirir, satır, daşıyır, başqasına verir və ya saxlayırsa, onun əməli cinayətlərin məcmusu qaydasında—CM-in 228 və 229-cu maddələri ilə tövsif edilməlidir.

Şəxs odlu silahın komplekt hissələrini taladıqda və sonradan həmin hissələrdən istifadə edərək, qanunsuz olaraq odlu silah hazırladıqda, onun əməli də cinayətlərin məcmusu qaydasında—CM-in 229 və 232-ci maddələri ilə tövsif edilməlidir.

Əgər odlu silahın komplekt hissələri bir şəxs tərəfindən talanmış, digər hissələrin hazırlanması və odlu silahın yığılması isə başqa şəxs tərəfindən həyata keçirilmişdirsə, bu şəxslərdən birincisinin əməli CM-in 232-ci maddəsi ilə, ikincinin əməli isə CM-in 229-cu maddəsi ilə tövsif olunmalıdır.

Bu şəxslərdən biri cinayətin digər şəxs tərəfindən törədilməsinin təşəbbüskarı kimi çıxış etdikdə, onu cinayəti törətməyə təhrik etmiş olduqda və s. hallarda təqsirkarın, təhrikçiliyə və iştirakçılığın (CM-in 32-ci maddəsi) digər növlərinə görə cinayət məsuliyyətinə cəlb edilməsi istisna olunmur. Məsələn, odlu silahın komplekt hissələrini talamış şəxs başqasını dilə tutaraq çatışmayan hissələri hazırlamağa və istifadəyə

yararlı silah yığmağa təhrik edir. Bu zaman silahı hazırlayanın əməli CM-in 229.1-ci, təhrikçinin əməli isə CM-in 32.4-cü, 229.1 və 232.1-ci maddələri ilə tövsif olunmalıdır.

19. Odlu silahın, döyüş sursatının və partlayıcı maddələrin və qurğuların istifadəyə yararsız olan komplekt hissələrini onları təmir etmək məqsədi olmadan əldə etmə, saxlama, daşıma, satma, başqasına vermə və ya gəzdirmə Azərbaycan Respublikası CM-in 228.1-ci maddəsində nəzərdə tutulmuş cinayət məsuliyyətini yaratmır.

20. Qanunun mənasına görə, CM-in 229.1-ci maddəsində sadalanan predmetlərin hazırlanmasına və təmir edilməsinə görə məsuliyyət nəzərdə tutulduğundan və xidməti mülki silahın istehsalı yalnız bunun üçün xüsusi icazəsi olan müəssisələr tərəfindən həyata keçirildiyindən belə icazəsi olmayan dövlət və ya qeyri-dövlət müəssisələrində odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını, partlayıcı maddələri və qurğuları hazırlayan və ya təmir edən şəxsin əməli şərh edilən maddə ilə tövsif edilməlidir.

21. Əvvəllər CM-in 229.4-cü maddəsində göstərilən qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı (tullayıcı) silahı qanunsuz hazırlamış şəxs tərəfindən sonradan Məcəllənin 229.1-ci maddəsində sadalanan predmetlərin hazırlanması həmin maddədə nəzərdə tutulmuş cinayətin təkrar törədilməsi hesab edilmir. (Məsələn, qanunsuz olaraq qaz silahı hazırladıqdan sonra odlu silah hazırlama).

22. Qanunsuz olaraq odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını partlayıcı maddələri hazırlayan və ya qanunsuz olaraq odlu silahı təmir edən şəxs onları könüllü surətdə təhvil verərsə, onun əməllərində başqa cinayətin tərkibi olmadıqda, CM-in 229-cu maddəsi ilə məsuliyyətdən azad edilir.

Odlu silahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə əldə etmiş şəxs onları könüllü surətdə təhvil verdikdə, CM-in 232.1-ci maddəsi ilə məsuliyyətə cəlb edilməlidir.

“Könüllü təhvil vermə” dedikdə, bu qərarın 15-ci bəndində göstərilən izah nəzərə alınmalıdır.

23. Odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin hazırlanması və ya təmir edilməsi, eləcə də onların əldə edilməsi, başqasına verilməsi, satılması, daşınması, gəzdirilməsi, talanması, hədə-qorxu ilə tələb edilməsi, əgər onlar başqa cinayət törətmək məqsədilə edilirsə və bu cinayətlər ağır və xüsusilə ağır cinayətlər sırasına daxildirsə, əməl cinayətlərin məcmusu qaydasında-başa çatmış kimi CM-in 229-cu maddəsi ilə və digər cinayəti törətməyə hazırlıq kimi tövsif edilməlidir.

24. CM-in 231-ci maddəsində nəzərdə tutulan məsuliyyət odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların, xidməti vəzifəsi ilə əlaqədar mühafizəsi tapşırılmış şəxs tərəfindən öz vəzifəsini sadalanan predmetlərin talanmasına və ya məhv edilməsinə, yaxud digər ağır nəticələrə səbəb olan şəkildə lazımınca yerinə yetirilməməsində ifadə olunur, CM-in 228 və 229-cu maddələrində nəzərdə tutulmuş cinayətlərdən fərqli olaraq, odlu silahın kompleks hissələri CM-in 231-ci maddəsində nəzərdə tutulan cinayətin predmeti hesab olunmur.

Şəxsin öz vəzifələrini lazımınca yerinə yetirməməsi dedikdə, CM-in 231-ci maddəsində sadalanan predmetlərin mühafizəsi zamanı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunan qaydaları pozması başa düşülür. Bu cinayət həm stasionar anbarların (məsələn, cəbbəxanaların, silah istehsal edən müəssisələrin anbarlarının və s.) həm də səyyar və müvəqqəti anbarların (məsələn, bu maddədə qeyd olunan silah və digər predmetlərin daşınması zamanı) mühafizəsi, eləcə də anbardan kənarda olan silahın nəqliyyat vasitəsinə yüklənməsi zamanı törədilə bilər.

CM-in 231-ci maddəsində sadalanan predmetlərin mühafizəsi üzrə təqsirkarın vəzifəsini lazımınca yerinə yetirməməsi yalnız bu predmetlərin digər şəxs tərəfindən talanmasına və ya məhv edilməsinə, yaxud digər ağır nəticələrə səbəb olduqda və şəxsin silahın mühafizəsi üzrə vəzifələrinin lazımınca yerinə yetirilməməsi ilə nəticə arasında səbəbli əlaqə olduqda cinayət məsuliyyəti yaranır.

Odlu silah, onun mühafizəsi tapşırılmış şəxs tərəfindən talandıqda əməl CM-in 232-ci maddəsi ilə tövsif edilir.

25. Məhkəmələr nəzərə almalıdırlar ki, CM-in 232.1-ci maddəsində göstərilən odlu silahın, döyüş sursatının, partlayıcı maddələrin və qurğuları talama və ya hədə-qorxu ilə tələb etməyə görə cinayət məsuliyyətinin yaranması üçün bu predmetlərin mülkiyyətçisinin və ya sahibinin kim olması, habelə onların miqdarı və dəyəri əhəmiyyət kəsb etmir.

Həmin predmetlərin talama, yaxud hədə-qorxu ilə tələb edilməsinin şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi dedikdə, həmin əşyaların müəyyən müddətə xüsusi vəzifələri yerinə yetirmək üçün (məsələn, qarovulçu, növbə üzrə asayişin mühafizəsində iştirak edən, müəyyən qaydalar üzrə daimi silah gəzdirmək hüququ olan polis əməkdaşları, keşikçi, inkassatorun öz xidməti vəzifələrini yerinə yetirməsi ilə əlaqədar) verildiyi şəxs tərəfindən onların talanması və ya hədə-qorxu ilə tələb edilməsi başa düşülür.

Eyni zamanda mühafizə üçün etibar olunduğu şəxs tərəfindən odlu silahın və şərh olunan cinayətin digər predmetlərinin talanması dedikdə, onların anbarda və ya başqa saxlanc yerində nəinki qoruyub mühafizə etmək vəzifələrini yerinə yetirən şəxs, həmçinin onların xidməti vəzifələri ilə əlaqədar öhdəsində olduğu vəzifəli və maddi məsuliyyətli şəxs tərəfindən talanması başa düşülür.

26. Odlu silahın vəzifəli şəxs tərəfindən diqqətsiz saxlanılması ağır nəticələrə səbəb olduqda, onun əməli Azərbaycan Respublikası CM-in 230-cu maddəsi ilə tövsif edilməli, hərbi qulluqçunun xidməti istifadəsinə verilmiş silahın və ya döyüş sursatının onların diqqətsiz saxlanılması nəticəsində itirilməsi isə Məcəllənin 347-ci maddəsində nəzərdə tutulmuş cinayət kimi qiymətləndirilməlidir.

CM-in 230-cu maddəsində nəzərdə tutulmuş ağır nəticələr dedikdə, təqsirləndirilən şəxsin odlu silahı diqqətsiz saxlaması üzündən həmin silahın başqasının əlinə keçməsinin insan tələfatına (o cümlədən intihara), başqasının sağlamlığına ağır və ya az ağır zərər dəyməsinə, əmlakının ciddi zədələnməsi və ya məhv edilməsinə səbəb olması və bu kimi hallar başa düşülməlidir.

27. Xidməti istifadə üçün verilmiş odlu, soyuq silah, döyüş sursatı və ya partlayıcı maddələri oğurlamaq məqsədi olmadan aparmaqla fərarilik etmiş və hərbi hissəni (qulluq yerini) özbaşına tərk etdikdən sonra həmin predmetləri qanunsuz gəzdirən və ya saxlayan hərbi qulluqçunun əməlləri Azərbaycan Respublikası CM-in 334.2-ci maddəsi ilə yanaşı, silahın növündən asılı olaraq Məcəllənin 228.1-ci və ya 228.4-cü maddələri ilə tövsif edilməlidir.

28. Məhkəmələr odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələr və qurğuların talanmasına kömək etmiş səbəb və şəraiti müəyyən etdikdə, onların aradan qaldırılmasına müvafiq orqanların diqqətini xüsusi qərar çıxarma yolu ilə cəlb etməlidirlər.

Bunlarla yanaşı, məhkəmələr bu növ cinayətlər törətmiş şəxslərə cəza təyin edərkən, onların hərəkətlərinin məqsədi və motivini, talanmış odlu silahın, onun

komplekt hissələrinin, döyüş sursatlarının, partlayıcı maddələr və qurğuların əldə edilmə mənbəyini və ələ keçirilmə üsulunu, onların növünü, miqdarını, dəyərini və döyüş xüsusiyyətlərini nəzərə almalıdırlar.

29. Hazırkı qərarın qəbul edilməsi ilə əlaqədar "Silah, döyüş sursatı və ya partlayıcı maddələrin oğurlanması və qanunsuz dövriyyəsinə dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 1998-ci il 22 may tarixli, 1 №-li qərarı qüvvədən düşmüş hesab edilsin.

Azərbaycan Respublikası
Ali Məhkəməsinin Sədri                                        Ramiz Rzayev